**06 Mart 2008 15:32**
**MƏNBƏ: AZADİNFORM**

**Bakı-Tiflis-Qars dəmir yolunun Gürcüstan hissəsində tikinti işlərini "Azərinşaatservis" ASC həyata keçirəcək**

"Azərinşaatservis" ASC Bakı-Tiflis-Qars dəmir yolunun Gürcüstan hissəsində tikinti işlərinin həyata keçirilməsi ilə bağlı elan edilən tenderin qalibi elan olunub.

AZADİNFORM xəbər verir ki, bu barədə məlumatı jurnalistlərə müsahibəsində "Marabda-Kartsaxi Dəmir Yolu" MMC-nin dirktoru Ramaz Qiorqadze verib. R.Qiorqadze artıq aprelin sonu-mayın əvvəlində ilk tikinti işlərinə başlanılmasının nəzərdə tutulduğunu bildirib. Şirkət rəsmisi təmir-tikinti işlərinin aparılması üçün "Azərinşaatservis" ASC-yə 24 mln. dollar vəsait ayrıldığını qeyd edib.

R.Qiorqadze sözügedən layihəyə Gürcüstanda yaşayan ermənilər tərəfindən heç bir maneənin olmayacağını bildirib.